## AYDIN QARABAĞLI - 90

# ŞƏRƏFLİ ÖMÜRDƏN SƏHİFƏLƏR











## İSTƏKLƏRİN ƏN ÜSTÜNÜ

Bilmirəm, insan ömrü, insanın yaşam yolundakı hərəkəti sürətlidir, yoxsa, zamanın içimizdən keçib-gedən sürəti. Yəqin ki, obrazlı düşüncədə insan ömrünün sürətinə, ötəriliyinə daha çox diqqət yönələr. Nə bilmək olur? Bəlkə zaman müəyyən məqamlarda bizə güzəştə gedir. Dayanıb bizi seyr edir; biz necə gedirik, keçmişimizdən gələcəyimizə doğru hansı sürətlə gedirik, bu günümüzü hansı hisslərlə, düşüncələrlə yaşayırıq... çox güman ki, bizim sürətimiz də, həyatımızın nələrdən keçdiyini yaşadan xatirələrimiz də elə zamanın bizə güzəştidir.

Aydın Qarabağlı... mən onun yaşam yolunu, köhnə təbircə desəm, tərcümeyi-halını olduğu kimi danışmaq fikrində deyiləm. Amma bəzi məqamlara aydınlıq gətirmək istərdim. Axı bu kişinin öz adı da Aydındır. İnsan öz adına uyğun yaşayırsa, onun xoşbəxt bürc altında uzunömürlü ulduz axarında doğulduğuna gərək şübhə etməyəsən.

Onlarca kitabın, xüsusilə Qarabağın taleyi ilə bağlı bələdçi kitabların yazılması üçün çəkdiyi zəhmətləri göz önünə gətirəndə bu adamın öz ömründən kənar neçə ömür yaşadığına şübhə etmirsən.

Doxsan il... hünər istəyir bu ömrü yaşayasan. İnsanın mənəvi mühiti nə qədər sağlam olmalıdır ki, onu içəridən bir-birinə zidd duyğular yırtıcı həşəratlar kimi yeyib-dağıtmasın.

Aydın Qarabağlının həyatı ruhən sağlam insanın həyatıdır. O, dünyaya gələndə sərt qadağaların zamanı idi. Bu o zaman idi ki, keçmiş Sovetlər Birliyində hər kəs qardaşlıq nəğməsi oxumağa məhkum idi. Bu o zaman idi ki, doğulub məktəb illərini yaşadığı Xankəndində Zori Balayanla eyni məktəbdə təhsil alırdı.

"Uzun ömür yaşamağın da öz problemləri var. Həyatın bir çox dəyərləri gözlərinin önündə dəyişir. Bütün bunlar ruhundan, varlığından izsiz ötüb keçmir. Amma hər halda mən bir çox arzularımın necə çiçək açdığını məhz mənə qismət olan yaşamımla görə bilmişəm" - bunun Aydın Qarabağlı deyir. Mən də əlavə edirəm. Ustad, siz xoşbəxt insansınız. Azərbaycaqna fəlakət gətirən Zori Balayan ideologiyasının necə iflasa uğradığını, Zori Balayanın özünün dünyaya gətirdiyi bəla ilə qıvrıla-qıvrıla dünyanı tərk etməsinin şahidi olmusunuz. Zənnimcə, bu şahidliyin özü Xocalı şəhidliyinin qisası deməkdir. Hiss edirəm ki, ustad ruhunu oxşayan sözlərimdən, yaşın gətirdiyi iztirablardan yuxarı qalxır və xüsusi bir təbəssümlə sözümün dəyərini mükafatlandırır.

Qayğı adamıdır. İlk gəncliyindən üzü bəri bütün ailənin yükü, ağırlığı onun çiyinləri ilə yol gəlib. Dənizçi olmaq istəyib, ailədən kənarda yaşamaqla okeanları üzmək ehtirasını da ailənin - bacılarının taleyinə qurban verib.

Zənnimcə, Aydın Qarabağlı başa düşülən yazıçıdır, publisistdir, tarixçidir, etnoqrafdır, jurnalistdir. Ən başlıcası, vətən, xalq taleyi ilə düşüncələri yoğrulmuş insandır. Böyük ziyalıdır. Tam səmimiyyətlə demək olar ki, onu başa düşənlər də az deyil. Kitabları günümüzəcən dövlət hesabına çap olunub. Çünki yazdıqlarının real, həqiqi dəyəri var.

Aydın Qarabağlını yaxşı tanımaq üçün onun foto şəkillərdə əks olunmuş həyatını görmək də az əhəmiyyət kəsb etmir.

Mən də özümü xoşbəxt ulduz altında doğulanlardan hesab edirəm. Çünki Aydın Qarabağlı kimi ziyalılarla müasir olmaq, onlarla birgə mühitdə yaşamağın zövqünü duymaq, zənnimcə, taleyin ən xoş təsadüflərindən biridir. Bircə arzum qalır; Aydın Qarabağlı ilə birgə elə bu günlərdə Xankəndinə səyahət etmək.

Aydın Qarabağlının doğulub-böyüdüyü evi görmək, həyəti görmək, o yeri-yurdu ziyarət etmək...

Elə böyük istəklər var ki, qiblədən də üstündür.

***Əli Rza XƏLƏFLİ***
***16.09.2024***











